Oqtay Əsədov Cibuti Milli Assambleya- münasibətilə Milli Məclisin sədrini və

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 403** **Bakı şəhəri, 19 sentyabr 2018-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" 2014-cü il 1 may tarixli 118 nömrəli və "Nəzarət zərfi dövlətə məxsus banklar tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2017-ci il 11 oktyabr tarixli 422 nömrəli qərarlarında dəyişikliklər edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə əlavə tədbirlər haqqında" 2018-ci il 1 may tarixli 29 nömrəli Fərmanının 3.4-cü və "Elektron ipoteka və kredit zəmanət" sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2018-ci il 1 may tarixli 30 nömrəli Fərmanının 3.2-ci bəndlərinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547; 2015, № 8, maddə 974, № 11, maddə 1417; 2016, № 4, maddə 795, № 5, maddə 955, № 6, maddə 1192, № 9, maddə 1582, № 11, maddə 1938, № 12, maddə 2239; 2017, № 3, maddələr 473, 509, № 9, maddələr 1731, 1764; 2018, № 2, maddə 348, № 5, maddə 1117, № 6, maddələr 1359, 1361) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın 42.1-ci bəndində "Elektron ipoteka" sözləri "Elektron ipoteka və kredit zəmanət" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 11 oktyabr tarixli 422 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1887; 2018, № 5, maddə 1117) ilə təsdiq edilmiş "Nəzarət zərfi dövlətə məxsus banklar tərəfindən öz vəsaitləri hesabına ipoteka kreditlərinin verilməsi Qaydası"nın 2.3-cü bəndində "Elektron ipoteka" sözləri "Elektron ipoteka və kredit zəmanət" sözləri ilə əvəz edilsin.

***Novruz MƏMMƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***